**UOT:373.**

# UŞAQLARIN MƏKTƏB TƏLİMİNƏ HAZIRLANMASI YOLLARI

***Məmmədov İlham  Məhəmməd oğlu, Bağırova Abuhəyat Məmmədəli qızı,***
***Cəfərli Konül  Qəzənfər qızı***
***Gəncə Dövlət Universiteti***
***İlhamgdu59@mail.ru***
*ceferlikonul12@gmail.com*

**Xülasə:** *Məqalədə uşaqların məktəb təliminə psixoloji hazırlığı problemi araşdırımış və məktəb psixoloqları, bağça müəllimləri və valideyinlər üçün gərəkli hesab edilən tövsiyyələr verilmişdir.*

**Açar sözlər:** məktəbə psixoloji hazırlıq, böyük məktəbəqədər yaşlı uşaqlar, məktəb yetkinliyi, valideyinlər**.**

**Ключевыеслова:** психологическая готовность к школе, старшие дошкольники, школьна язрелость, родители**.**

**Keyword:** Psychological  readiness for school, older preschoolers, school maturity, parents.

Məktəbəqədər uşaq müəssisələrinin  imkanlarının artırılması, orada qurulan işin səmərəliliyi şagirdlərin təlimdə müvəffəqiyyət əldə etməsi ilə yanaşı onların məktəb həyatına, həmyaşıdları ilə şəxsiyyətlərarası münasibətlərə hazırlanması problemini də aktuallaşdırır.

Son dövrlərdə aparılmış psixoloji-pedaqoji tədqiqatlarg östərir ki, bir çox hallarda şagirdlərin təlimdə müvəffəqiyyət qazana bilməməsinin səbəbləri heç də yalnız onların idrak imkanlarının tələb olunan səviyyədə  inkişafı ilə bağlı deyil, həm də onların məktəb təliminə nə dərəcədə hazırlanması isə bağlıdır [2,3,6,7 ].

Aparılan çoxsaylı tədqiqatlar [3,6,7,8.və s.] və pedaqoji təcrübə göstərir ki, böyük məktəbəqədər yaşlı uşaqlar geniş psixofizioloji imkanlara malik olduqları üçün, onarla sistemli iş aparıldıqla fiziki və əqli inkişafı üçün əlverişli şərait yaratmaq mümkün olur.

Məlumdur ki, məktəbəqədər yaş dövründə oyun aparıcı fəaliyyət növü kimi cıxış edir. Bu dövründə uşağın oyun fəaliyyəti ilə yanaşı digər fəaliyyət növləti də: təlim, əmək, quraşdırma, rəsm, applikasiya fəaliyyətləri də müəllimlərin və valideyinlərin diqqətindən kənarda qalmamalıdı.

Uşaqların məktəbə hazırlığının müvəffəqiyyətlə təmin olunması üçün bir tərəfdən onların psixoloji xüsusiyyətlərinin dəridən öyrənilməsini tələb edirsə, digər tərəfdən də onun həyata keçirilməsinın səmərəli üsul və yolları axtarılır.

Uşağın məktəb təliminə psixoloji hazırlığı problemi psixoloqlar, pedaqoqlar, fizioloqlar və həkimlərin tədqiqat obyekti olsa da, məhz psixoloqlar tərəfindən irəli sürülən ”məktəb yetginliyi” anlayışı uzun zaman mübahisə doğuran məsələlərdən bir olaraq qalır və bu gün uşaqların məktəbə hazılıgınım sinonimi kimi qəbul olunur.

Xarici ölkələtin psixoloqları (A. Anastazi, V. Ştern,Y. Şvansor və b.) məktəb yetginliyini inkişafın elə bir səviyyəsi kimi qəbul edirlər ki, bu zaman uşaqlar məktəb təlimində iştirak etmək qabiliyyətində və həddində olurlar. A.Anastazi “məktəb yetginliyini “ uşagin öz davranışı ilə məktəb proqramını mənimsəmək üçün vacib olan motivasiya, qabiliyyət, bilik və bacarıqlarının məcmusu” kimi səciyyələndirir.

Uşağın məktəb təliminə psixoloji hazırlığına Y.Şvansor emosional, sosial və  əqli komponentlərin vəhdətini aid edir. Onun fikrincə, məktəb təliminə tam hazırlığa əqli inkişafın müəyyən həddə yüksəlməsi, dözümlülük, müvəffəqiyyət qazanmaq cəhdi, maraqların inkişafı, oxumaq qabiliyyətinin inkişafı və sosial davranış normalarını mənimsəmək daxildir.

Tanınmış rus sovet psixoloqları məktəb təliminə psixoloji hazırlığa uşağın ümumi inkişafının hərəkətverici qüvvəsi prinsipindən yanaşmışlar. L.S.Vıqotski, A.N.Leontyev, S.L.Rubinşteyn məktəb təliminə psixoloji hazırlığı ümumnəzəri baxımdan təhlil edərək

burada psixi inkişafı, tərbiyəni, ictimai təcrübənin mənimsənilməsini və bunların nəticəsi olaraq, bilik və bacarığa yiyələnməyi aid edirlər.

Psixoloqlar eyni zamanda göstərirlər ki, uşağın məktəb təliminə hazırlığı çoxsahəli və çoxpilləli təhsilin mühüm həlqələrindən biridir. L.İ.Bojoviçə görə, məktəb təliminə hazırlıq uşağın fikri fəaliyyətinin və idrak maraqlarının inkişafından, onun sosial yetginliyindən və bunların vəhdətindən asılıdır. L.İ. Bojiviçin bu mövqeyi ilə həmfikir olan A.V.Zaporojes uşağın məktəb təliminə psixoloji hazırlığı ilə əlaqədar yazır: ”Məktəb təliminə hazırlıq mürəkkəb və vahid bir sistem olmaqla özündə uşaq şəxsiyyətini, xüsusilə, onun motivasiya xüsusiyyətlərini, analitik-sintetik fəaliyyətini, fəaliyyətin iradi mexanizmlərinin formalaşması dərəcəsini, idrak fəaliyyətin inkişaf səviyyəsini birləşdirir” [ 8;55 ]

Uşaqların məktəb təliminə psixoloji hazırlığı problemi nəzəri baxımdan daha çox öyrənilsə də, praktik baxımdan respublikamızda onun həlli istiqamətində görülən işləri o, qədər də sevindirici deyildir. Tanınmış psixoloqlarımızdan Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Ə.Ə.Qədirov, M.Ə.Həmzəyev və digərləri uşaqların məktəb təliminə psixoloji hazırlığı problemini əsasən ümumnəzəri baxımdan araşdırılmışlar. Son illər bu istiqamətdə L.Ş.Əmrahlı pratik məktəb psixoloqlarına və valideyinlərə kömək məqsədi ilə “Psixoloji xidtən seriyasından “ 5 ədəd bir birini tamamlayam kitablar çap etdirib.* Lakin problemin problemin həlli yolları sistemli araşdırılmamışdır.

Qeyd olunduğu kimi uşaqların məktəb təliminə psixoloji hazırlığı çoxcəhətli və uzun bir prosesdir. Bu işdə ailənin rolu çox böyükdür. Hər şeydən əvvəl, ailənin hər bir üzvü uşaqla əməkdaşlıq etməli ilk əvvəl ailədə uşağa rast gəldiyi çətinliklərin öhdəsindən gəlməyi öyrətməlidir. Bunun üçün ən önəmli vasitə uşağa dəstək olmaq və onunla əməkdaşlıq etməkdir. Uşaqlara başladıqları işi sona qədər çatdırmağı öyrətməyin əsası ailədə qoyulur. Valideyinlər başa düşürlər ki, uşaqların məktəbdə oxuması çox vacibdir. Bu baxımdan onlar uşaqlarla məktəb barədə söhbətlər etməli, məktəbin avtoritetini onların gözündə qaldırmalıdırlar.

D.B.Elkonin qeyd edir ki, uşaqların əvvəlki yaş dövründəki aparcı fəaliyyətində digər yaş dövründəki aparıcı fəaliyyətin əsası qoyulur. Bunu nəzərə alaraq valideyinlər uşaqların məktəbəqədər yaş dövründəki müxtəlif fəaliyyət növlərinin inkişafına, xüsusilə də oyun fəaliyyətinin inkişafına diqqət yetirilməlidir. Onlar bilməlidirlər ki, uşaqların oyun fəaliyyətinin inkişaf səviyyəsi onların təlim fəaliyyətinə hazırlığının əsas göstəricisi kimi çıxış edir. Valideyinlər uşaqlarının süjetli-rollu oyunlarında imkan dairəsində iştirak etməsi onların oyun fəaliyyətinin inkişafına müsbət təsir göstərir. Valideyinlər uşaqlarını məktəb təliminə hazırlamaq üçün yalnız sözlərdən istifadə etməməli, onlar həmçinin uşaqlarının uğurlarını dəstəkləməlidirlər.

Uşağın məktəb təliminə hazırlığının zəruri şərtlərindən biri də onun hərtərəfli (fiziki, əqli, mənəvi) inkişafıdır. Onun bu inkişafını stimullaşdırmaq üçün ən önəmli üsul, uşağa öz uğurlarının sevincini hiss etdirmək, yaşatmaqdir. Bunun üçün valideyinlər uşaqlarının hər hansı bir fəaliyyət növünün həyata keçməsi üçün elə şərait yaratmalıdırlar ki, uşaqlar uğur sevincini yaşaya bilsinlər. Uşaqları hər hansı bir nailiyyətindən sonra tərifləmək, bunula da onları yeni nailiyyətlərə təhrik etməlidirlər. Uşaqları əsassız tərifləmək pis nəticə verir.

Uşağın psixi inkişafında onun emosional-iradi sferasının zənginləşməsi, hisslərinin tərbiyəsi, davranışında ətraf aləmə bələdləşməsi bacarıqlarının olması xüsusi əhəmiyyət kəsb edir. Onun mənlik şüurunun inkişafı iddia səviyyəsinin formalaşmasında və özünüqiymətləndirməsində daha parlaq biruzə verir. Uşaq özünün uğurlarını və uğursuzluqlarını başqalarının ona necə qiymət verməsinə görə qiymətləndirir. Uşağın uğur qazanmağa cəhd göstərməsi onun məktəb təliminə psixoloji hazırlığının göstəricilərində biri sayılır. Adekvat özünüqiymətləndirmə əsasında uşaqda təriflərə və tənbehlərə adekvat reaksiyalar əmələ gəlir.

*Psixoloji xidmətin əsasları-2006; Psixoprofilaktika-2010; Psixodiaqnostika- 2014; Vizualizasiya: NLP vəterapiya-2018; Psixoloji treninq- 2020.

İdrak maraqlarının formalaşması, fəaliyyətin və emosional-iradi sahənin zənginləşməsi uşaqların müəyyən bilik, bacarıq, vərdişlərə yiyələnməsi üçün ilkin şərtlər kimi çıxış edir. Öz növbəsində qavrayışın, təfəkkürün, hafizənin inkişafı uşağın bilikləri necə əldə etmək üsullarına yiyələnməsindən, onun maraqlarının istiqamətindən, davranışının ixtiyariliyindən asılıdır.

Evdə valideyinlər, bağçada tərbiyəçilər uşaqlara müqayisə etməyi, tutuşdurmağı, nəticə çıxarmağı və ümumiləşdirmələr aparmağı öyrədirlər. Təfəkkürün bu əməliyyatlarının formalaşdırılması uşaqların məktəbə hazırlanmasında mühüm rol oynayır. Bunun üçün uşağa deyilənlərə diqqətlə qulaq asmağı, əşyaları müqayisə etməyi, onların mühüm və qeyri-mühüm əlamətlərini ayırmağı, öz fikirlərini ardıcıl və düzgün söyləməyi, cümlələri savadlı qurmağı məqsədyönlü öyrətmək lazımdır.

Bu yaş dövründə uşaqlarda yaşlıların oxuduğu hekayələrə, nağıllara qulaq asmaq tələbatları biruzə verir. Valideyinlər uşağın bu tələbatını mütləq ödəməlidirlər. Mətni oxuyub qurtardıqdan sonra onun məğzini uşağın necə başa düşməsi ilə maraqlanmaq, lazım gəldikdə isə ətraflı izah etmək lazımdır. Bu priyom uşaqların oxuduqlarının, eşitdiklərinin, mahiyyətini anlamasına, onlarin mənəvi inkişafına, eşitdikləri hadisələrin bir-biri ilə əlaqəsini başa düşməsinə gətirib çıxarır. . Bu priyomlar həmçinin uşaqların nitqinin inkişafına, nitqində yeni sözlərin yaranmasına xidmət edir. Uşaqların nitqi nə qədər inkişaf etmişdirsə, söz ehiyatı nə qədər çoxdursa onlar  məktəb təliminə bir o qədər hazır hesab edilirlər. Beləliklə, valideyinlərin təkidi və təhriki ilə uşaqlar düzgün danışmağı öyrənir, bu da onların məktəbdə oxu və yazı vərdişlərinə yiyələnməsində böyük rol oynayır.

Müəyyən olunmuşdur ki, oyun fəaliyyəti məktəbəqədər yaşlı uşaqlarda bütün psixi proseslərin, o cümlədən də təfəkkürün və nitqin inkişafına əlverişli şərait yaradır. Uşaqlar oynayan zaman öz hərəkətlərini planlaşdırmağı öyrənirlər ki, bu da gələcəkdə məktəb təlimində onlara təlim fəaliyyətini planlaşdırmaqda yardımçı olur.

Həmçinin uşaqlara rəsm çəkməyi, yapmanı, applikasiyanı, yapışdırmanı, konstruktorlaşdırmanı öyrənmək lazımdır. Bu işləri icra edən uşaq sevinc hissi yaşayır, öz təssüratlarını, emosional vəziyyətini bunlarda əks etdirir. Rəsmlər çəkmək, yapmalar və konstruktorlaşdırmaq uşağa ətrafdakı əşyaları görməyi, təhlil etməyi, onların rəngini seçməyi, ölçülərini müəyyənləşdirməyi öyrədir. Həmçinin, bunlar uşağa ardıcıl hərəkətlər etməyi, öz hərəkətlərini planlaşdırmağı, nəticələri müqayisə etməyi öyrədir. Bütün bu bacarıqlar məktəbdə uşağın gərəyi olacaqdır. Valideyinlər uşaqlarına nəyi isə öyrətmək istəyərkən onlara qarşı zor tətbiq etməməli və çalışmalıdırlar ki, bunlar onların xoşuna gəlsin, onlara zövq versin. Valideyinlərlə ünsiyyət, əməkdaşlıq, birgə məşğələlər uşaqları sevindirməlidir.

Qeyd olunduğu kimi, uşaqların məktəb təliminə hazırlanmasında valideyinlərin rolu çox böyükdür. Onlar ailədə həm müəllimləri, həm də tərbiyəçiləri əvəz edirlər. Lakin, heç də bütün valideyinlər bu işin öhdəsindən müvəffəqiyyətlə gələ bilmirlər. Onların bir qismi bunu bacarmır, bir qismi isə işlədiklərindən buna lazımi qədər vaxt ayıra bilmirlər. Belə olan halda, bu işin öhdəsindən bağça tərbiyəçiləri gəlməli olurlar. Bir qayda olaraq uşaq bağçasına gedən uşaqlar məktəb təliminə daha mükəmməl hazır olurlar,  getməyənlər isə əksinə buna qismən aşağı səviyyədə hazır olurlar.  Bağça uşağın hərtərəfli inkişafına cavadehdir. Bu inkişafın tərkib hissələrindən  biri də uşaqların məktəb təliminə hazırlanmasıdır. Uşağın məktəb təliminə nə dərəcədə keyfiyyətli, səriştəli hazırlanması onun məktəbdə necə oxumasına, məktəbə necə uyğunlaşmasına ciddi təsir göstərir.

Beləliklə, aparılan araşdırma zamanı müəyyənləşdirildi ki, uşaqların məktəb təliminə hazırlanmasına bu sahədə tədqiqat aparan müəlliflər birmənalı, vahid mövqedən yanaşmırlar. Hələ də bu sahədə fikir ayrılığı mövcuddur.Praktik fəaliyyətdə valideyinlər və tərbiyəçilər bu məsələyə öz bildikləri, məqbul hesab etdikləri mövqedən yanaşırlar.

Bağça yaşı dövründə uşağın məktəb təliminə hazırlanması, bu zaman onun yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınması bir tərəfdən məktəbdə təlimin müvəffəqiyyətinə əsas verirsə, digər tərəfdən uşağın psixi inkişafına müsbət təsir göstərir.

Bağça yaşı dövründə uşağın məktəb təliminə hazırlanması onun texniki bacarığının, vərdişinin artırılmasına deyil, sosial-psixoloji hazırlığına əsaslanmalıdır. Bu hazırlıq isə obyektiv(ailə şəraiti, valideyin və tərbiyəçilərin təlimə münasibəti, sağlamlığı və fiziki inkişafı və s.) və subyektiv (uşağın qabiliyyəti, maraqları, təlim motivləri, istəyi, qarşılıqlı münasibəti, ünsiyyəti və s.) amillərdən asılıdır.Obyektiv və subyektiv amillərin qarşılıqlı vəhdətdə, birinin digərinə təsiri nəzərə alınmaqla inkişaf etdirildikdə məktəbə hazırlıq işini müvəffəqiyyətlə qurmaq olar.

***Ədəbiyyat***

1.AslanovaZ.M., Məmmədovİ.M. Kiçik məktəblilərin təlim fəaliyyətinin optimallaşdırılması. Bakı. 2012.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı. 2003.
3. Əlizadə Ə.Ə.,Əzimov Q.N.Quliyev E.M.Məktəblinin psixologiyası Bakı.19
4. Яфяндийева Ц.А. Цнсиййят вя гаршылыглы мцнасибятляр мяктябя психолоъи щазырлыьын ясасы кими. Бакы.2007
5. Практическая психология образования. (под ред. И.В.Дубровиной) СПБ: Питер, 2007, 304с.
6.Гуткина Н.И. Психологйгическая готовность к школе. Moskva., 2000.
7. Диагностика психологйгической готовности ребенка к школе. Под. ред. Н.Я. Кушер Moskva., 1991.
8.Запорожец Л.В. Развитие произвольных движений. Избр.психол.труды.Moskva., 1986.

## ПУТИ ПОДГОТОВКИ ДЕТЕЙ К ШКОЛЬНОМУ ОБУЧЕНИЮ

***Мамедов Ильхам Магамед оглы, Багирова Абухаят Мамедали кызы, Джафарли Конул Газанфар кызы***

***Резюме***

В статье исслевовано проблема психологическая готовность детей к школьному обучению и дано необходимые советы для школьных психологов, воспитателей детских садов и родителей.

## WAYS TO PREPARE CHILDREN FOR SCHOOLING

***Mamamdov Ilham Mahammad, Bagirova Abuhayat Mammadali***
***Cafarli Konul Gazanfar***

***Summary***

The article examines the problem of children's psychological readiness for schooling and gives the necessary advice for school psychologists, kindergarten teachers and parents.

***Rəyçi: dos Aslanova Zülalə***
***Psixologiya kafedrasının 28 oktyabr 2021-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olma tarixi 02 noyabr 2021-ci il***

**UOT:159.9.**

## TƏLİM ZAMANI ŞAGİRDLƏRİN ÖZÜNƏNƏZARƏT PROSESİ

***P.d.ü.f.d. Cəlilova Tünzalə Ələddin qızı***
***Gəncə Dövlət Universiteti***
Gceferova@rambler.ru

**Xülasə:** *Məqalə müasir pedaqogika və metodikanın aktual problemlərindən birinə həsr edilmişdir. Burada bu problemə müstəqillik və milli pedaqogika ruhunda cəhd edilir.*

*Məqalədə, məktəbdə özünənəzarətin pedaqoji imkanları açıqlanır və pedaqoji elmin inkişafında müsbət rol oynaya biləcək orijinal mülahizələr verilir.*

**Açar sözlər:** şagird, fəaliyyəti, özünənəzarət, təlim, vərdiş,bacarıq.

**Ключевые слова:**ученик, самоконтроль, учебная деятельность, умение, навыки.

**Key words:** pupil,self-control, education activity, skills, less

Məktəb təliminə hazırlıq uşaqlarda müxtəlif formalarda həyata keçirilir. Məktəbəqədər dövrdən bu hazırlıq bağçadan və evdən başlayır. Hazırlıq işi bağçada xüsusi proqramlar, evdə isə yalnız valideynlərin şəxsi təcrübəsi əsasında həyata keçirilir. Ona görə də, I sinfə ilk addım atan uşaqların ətraf aləmlə tanışlığı, müxtəlif xarakterli oyunlarla bağlı qabiliyyətləri, nitqinin inkişafı, sadə riyazi təsəvvürləri, oxu və yazı ilə bağlı ilkin hazırlıqları, lüğət ehtiyatları müxtəlif olur. Bunu nəzərə alaraq müəllim ilk dərslərdən şagirdlərin çıxardıqları sadə nəticələrin doğruluğunu sübut etməyə dair ilkin bacarıq və vərdişlərini müəyyənləşdirməyi qarşısına məqsəd qoyur. Bu məqsədlə ən sadə, aydın və daha təbii suallar seçilir və bu suallar şagirdlərə adi söhbət tərzində verilir.

Tədqiqat göstərdi ki, şagirdlərin böyük bir qismi çıxardıqları sadə nəticələrin doğruluğunu yoxlamağa dair sistemli bilik, bacarıq və vərdişlərə malik olmurlar. Onların bir qismi riyaziyyatdan ilk bir neçə sayı ardıcıl olaraq şifahi söyləmək, bir qismi az miqdarda əşyaları saymaq, digər bir qismi fəza tutumuna görə iki əşyalar qrupunu gözəyarı müqayisə etmək, bir gismi əşyaları cüt-cüt tutuşdurmaq və s. kimi sadə bacarıqlara malik olurlar. Həyat bilgisi üzrə uşağı əhatə edən mühit haqqında məlumatlarla, daha sadə formalarda təfəkkür əməliyyatlar ilə (analiz, sintez, müqayisə, ümumiləşdirmə, qruplaşdırma və s.), azərbaycan dilində nitq mədəniyyətinə və s. malik olurlar. Mövcud fənn kurikulumlarında bu nəzərə alınaraq ilk dərslər «Şagirdlərin ilkin və sadə qabiliyyətlərinin üzə çıxarılması»na həsr olunmuşdur. Bu da imkan verir ki, ilk dərslərdən əsas diqqət həm şagirdlərin sadə bilik, bacarıq və vərdişlərinin müəyyənləşdirilməsinə, tamamlanmasına və sistemləşdirilməsinə, həm də şagirdlərdə çıxardıqları sadə təlim nəticələrinin doğruluğuna şübhə oyadılması və bu şübhələrin yoxlanmasına yönəldilsin. Şagirdlərdə çıxardıqları nəticələrin doğruluğuna şübhə oyadılması ilk dərslərdə bilavasitə tərkibində olan elementlərin sayına görə iki əşyalar qrupunun, yaxud ətraf aləmdəkiəşyaların, rənglərin və s.

Müqayisəsini tələb edən praktik çalışmalar üzərində aparılır. Praktik çalışmalarda müqayisə olunan əşyalar qrupu həm əyani, həm də illüstrasiyalaşdırılmış lövhələrdə verilir və onlar fəza tutumuna görə bir-birindən kəskin fərqlənir. Lakin qruplardakı əşyalar elə ölçüdə götürülür ki, xarici görünüşcə biri o birindən çox görünsə də, lakin əksinə, həmin qrupda az əşya olur. Şagirdlərə əşyalar qrupu əvvəlcə gözəyarı müqayisə etdirilir. Müqayisə zamanı şagirdlər əşyalar qrupunun fəza tutumuna əsaslanır, hansı qrupda əşyalar çox görünürsə, həmin qrupdakı əşyaların çoxluğunu güman edirlər. Bu,şagirdlərin səhv nəticələr çıxarmasına səbəb ola bilir. Ona görə də şagirdlərə çıxardıqları nəticələrin doğru olub-olmadığını yoxlamaq təklif olunur və onların diqqəti müqayisə olunan iki əşyalar qrupu arasında müxtəlif praktiki üsullarla yaradılan birqiymətli uyğunluğa yönəldilir. Müqayisə olunan əşyalar qrupu əyani şəkildə verildikdə şagirdlər hər qrupdan bir əşya gotürür və onları cütləşdirib bir kənara qoyur. Bu əməliyyatı şagirdlər qrupların birində əşya qurtarana kimi davam etdirir və hansı qrupda artıq əşya qalırsa, onun çox olduğunu dəqiq müəyyənləşdirir.

İki əşyalar qrupu illustrasiyalaşdırılmış şəkildə verildikdə, onların sayca müqayisəsi zamanı şagirdləri cütləşdirmək anlayışı ilə tanış etmək faydalı olur. Bu halda qruplardakı əşyalar cütləşdirmə üçün əlverişli formada yerləşdirilir. Belə əlverişli formalardan biri qruplarda olan əşyaların nizamlı şəkildə paralel düzülmə-sidir. Əşyalar qruplarda nizamla düzüldükdə hər qrupdan bir əşya seçilir və onlar xətlər vasitəsilə cüt-cüt birləşdirilir. Bu əməliyyat yazı taxtasında nizamsız formada təsvir olunmuş iki fiqurlar çoxluğunun müqayisəsi zamanı fiqurların cüt-cüt pozulması ilə də aparılır. Müqayisə olunan əşyalar qrupu təsviri formada verildikdə şagirdlərin mücərrədləşdirmə meyllərindən də istifadə olunur.

Mücərrədləşdirmə zamanı şagirdlər əşyaları şərti olaraq nöqtələrlə işarə edir, bu nöqtələri qapalı xəttin daxilinə alır, sonra nöqtələr qrupunun hər birindən bir nöqtə götürməklə onları cüt-cüt birləşdirirlər. Hansı qrupdakı nöqtələrdən artıq qalırsa, şagirdlər həmin nöqtələrin, habelə bu nöqtələrə uyğun olan əşyaların o birindən çox olduğunu dəqiq müəyyənləşdirirlər.

Ümumiyyətlə, bu prosesdən şagirdlər iki əşyalar qrupu arasında bir qiymətli uyğunluq yaratmaq bacarığını gözəyarı müqayisələrin nəticələrinə nəzarət vasitəsi kimi mənimsəyirlər.

Tədqiqat göstərdi ki, növbəti mərhələdə, yəni on dairəsində toplama və çıxma əməllərinin icrası zamanı alınan nəticələrin doğruluğunu sübut etmək bacarıqlarının aşılanması iki əşyalar çoxluğunun birləşdirilməsinə və verilən əşyalar çoxluğundan onun bir hissəsinin ayrılmasına aid olan praktik çalışmalar əsasında öyrədilə bilir. (Əslində belə çalışmaların yerinə yetirilməsini ilk riyaziyyat dərslərindən əşyaların sayılması və əşyalar qrupunun sayca müqayisəsi ilə əlaqədar başlanılır və riyazi təlimin növbəti mərhələlərində geniş tətbiq olunur).

«Toplama və çıxma» mövzusuna həsr edilən ilk dərslərdə bu çalışmalar «nömrələmə» üzərindəki işlə hesab əməllərinin öyrədilməsini əlaqələndirmək məqsədi güdür. Şagirdlər 1–dən 5-ə qədər ədədlərin toplanması və çıxılması zamanı alınan nəticələrin doğruluğunu sübut etməklə hələ «nömrələmə» mövzusunda qarşılaşırlar. Lakin şagirdlər «nömrələmə» mövzusunda bu işi iki əşyalar qrupunun birləşdirilməsinə və əşyalar qrupundan onun bir hissəsinin ayrılmasına aid olan praktik çalışmalar üzərində icra edirlər. «Toplama və çıxma» mövzusunda isə şagirdlər aldıqları nəticələrin doğruluğunu sübut etməyi yeni prinsip əsasında öyrənirlər. Bu prinsip say materialları və müxtəlif əşya qruplarına əsaslanmır. O, yalnız ədədlər üzərindəki əməliyyatlara əsaslanır. Bu əməliyyatlar istənilən ədədin özündən əvvəl gələn ədədi 1 artırmaqla və özündən sonra gələn ədəddən 1 çıxmaqla alınmasından, 2,3,4 və 5 ədədlərinin tərkib hissələrinə ayrılmasından və s. ibarətdir. Ədədi tərkib hissələrinə ayıraraq hissə-hissə üstəgəlmə və çıxma priyomuna əsaslanan sübutetmə universaldır. Çünki bu sübutetməni şagirdlər 100 –lük dairəsində toplama və çıxma əməllərinin icrası prosesində də etmək imkanına malik olurlar.

Şagirdlər 10-luq dairəsində cəmin yerdəyişmə xassəsinə əsaslanan silloqistik mühakimələr yürütməyin və alınan nəticələrin bu mühakimələrdən istifadə edərək sübut etməyi də öyrənirlər. Bu zaman şagirdlər dərslikdə verilən birəməlli çalışmaları üç qrupa bölürlər: I toplananı böyük olan, hər iki toplananı eyni olan və II toplananı böyük olan çalışmalar. I toplananı böyük olan çalışmaların həllində şagirdlər belə bir nəticəyə gəlirlər ki, cavabın doğruluğunu toplananların yerini dəyişməklə yoxlamaq əlverişli deyil. Çünki kiçik ədədin üstünə böyük ədədi gəlmək daha çətindir, lakin böyük ədədin üstünə kiçik ədədi gəlmək daha asandır. Ona görə də alınan cavabın doğruluğunu toplananların yerini dəyişməklə sübut etmək çalışmanın öz həllinə nisbətən mürəkkəb olur.

Toplananların yerini dəyişməklə aparılan sübut etmənin əlverişli olmadığını şagirdlər hər iki toplananı eyni olan misallara da aid edirlər. Çünki, belə misallarda toplananların yerini dəyişməyin mənası olmur, misal öz formasını dəyişmir. Lakin II toplananı böyük olan misalların həllində şagirdlər öyrənirlər ki, alınan nəticələrin doğruluğunu toplananların yerini dəyişməklə sübut etmək əlverişlidir, çünki, bu zaman böyük ədədin üzərinə kiçik ədəd gəlinir və nəticə daha asan hesablanır. Toplananların yerini dəyişməklə alınan nəticəni əvvəlki nəticə ilə müqayisə etdikdə şagird öz cavabının doğru olub – olmadığını asan müəyyənləşdirir.

Şagirdlər hesab əməllərinin icrası zamanı toplama və çıxma əməllərindən birini digərinin nəticəsinə nəzarət vasitəsi kimi mənimsəyirlər. Bu zaman şagirdlərin sübutetmələri toplama və çıxma əməllərinin komponentləri arasındakı qarşılıqlı əlaqəyə əsaslanır. Şagirdlər toplama əməlinin nəticəsini çıxma əməli ilə yoxlamağı, onun doğruluğunu sübut etməyi mənimsəyirlər. Çıxma əməlinin nəticəsini isə şagirdlər iki qaydada – həm toplama əməli ilə, həm də çıxma əməlinin özü ilə yoxlamağı öyrənirlər. Çıxma əməlinin nəticəsini toplama

əməli ilə yoxlayarkən şagird fərqlə çıxılanı toplayır. Əgər o, nəticədə azalanı alırsa, onda fərqin düzgün hesablandığını, azalanı almırsa, fərqin düzgün hesablanmadığını yəqin edir.

Çıxma əməlinin nəticəsini çıxma əməlinin özü ilə yoxlayarkən şagird azalandan tapılan fərqi çıxır. Əgər o, nəticədə çıxılanı alırsa, onda fərqin düzgün tapıldığını, almırsa, fərqin düzgün tapılmadığını yəqin edir.

Nəhayət «100-lük bölməsində toplama və çıxma əməllərinin icrası prosesində aldıqları nəticələrin doğruluğunu sübut etmək bacarıqlarının şagirdlərdə formalaşdırılmasını yekunlaşdıraraq o nəticəyə gəlmək olur ki, şagirdlər 100-lük dairəsində əsas hesablama priyomlarını (cəmin üstünə ədədi gəlmə, cəmdən ədədi çıxma, ədədin üstünə cəmi gəlmə və ədəddən cəmi çıxma) praktik çalışmalar və illüstrasiyalaşdırılmış lövhələr üzərindəki iş əsasında öyrənirlər. Bu zaman onların diqqəti hesablama priyomlarındakı üç müxtəlif üsulun müqayisəsinə cəlb edilir. Şagirdlər müqayisəni əvvəlcə soldan birinci sütunda dayanan ifadələr arasında aparır və müəyyən edirlər ki, bu ifadələr eyni hesablama priyomunun başlanğıc vəziyyəti olduğundan hər üç ifadə eynidir. Sonra sağdan birinci sütunda dayanan ifadələrin, yəni alınan nəticələrin müqayisəsinə keçilir. Müqayisə zamanı şagirdlər müəyyən edirlər ki, hesablama priyomunun hər üç üsulu ilə alınan nəticələr eynidir. Lakin ortada dayanan sütunların müqayisəsində şagirdlər həll üsullarının müxtəlifliyinə rast gəlir, onların bir – birindən əsas fərqini müəyyən edirlər. Növbəti dərslərdə də bu məsələ üzərinə bir daha qayıdılır və konkret misallar üzərində müxtəlif üsullarla alınan nəticələr müqayisə olunur. Şagirdlər 100-lük dairəsində ədədlərin toplanması və çıxılması zamanı hesablama priyomunun üsullarından biri vasitəsilə alınan nəticənin doğru olub – olmadığını həmin priyomun digər üsulunun köməyilə sübut edir. Bu zaman şagird çalışmanı hesablama priyomunun ən azı iki üsulu ilə həll edir, sonra alınmış nəticələrin müqayisəsinə keçir.

Tədqiqatlarımız göstərdi ki, ibtidai siniflərdə fənlərin tədrisi zamanı şagirdlərdə aldıqları nəticələrin doğruluğunu sübut etmək bacarıqlarının formalaşdırılması onların təsəvvürünü, diqqətini, yaddaşını, təfəkkürünü, mühakiməli nitqini inkişaf etdirir, yaradıcı düşünmələrinə köməklik göstərir, ibtidai siniflərdə riyaziyyat, azərbaycan dili, həyat bilgisi, oxu və s. fənlərin tədrisi metodikasını müasir təlim ideyalarına daha da yaxınlaşdırır.

### *Ədəbiyyat*

Kərimov Y.Ş. Pedaqoji tədqiqat metodları. – Bakı, 2009, s. 273.
M.İ.Moro, M.A.Bantova, Q.B.Beltyukova. “1-ci sinifdə riyaziyyat”, Bakı, 1976.
М.И.Моро, А.М.Пышкало. Методика обучения матиматике в I-III кл. Москва, 1976.
А.И.Маркушевич. Математика в школе. 1962, № 2.
Tağıyev Ş.T. Şagirdlərdə riyazi əsaslandırma bacarıqlarının formalaşdırması. Bakı, 1981, s.42.
Həmidov S.S. I-IV siniflərdə riyaziyyatın tədrisi metodikası. Bakı, 2006, s.400.
Həmidov S.S., Məcidova A.Ə. İbtidai siniflərin riyaziyyat təlimi prosesində ədəd anlayışının formalaşdırılması və inkişaf etdirilməsi. Bakı, 2005, s.352.
Həmidov S.S., Hacıyev N.M. İbtidai siniflərdə məsələ həlli təliminin aktual problemləri. Bakı, 2008, s.272.
Ф.Папи, Ж.Папи. «Дети и графы». Москва, «Педогогика» , 1974.
10.Н.М.Бескин. Методики геометрии, Москва, 1947.
11.Əliyev R.İ. Təhsildə psixoloji xidmətin sosial-psixoloji məsələləri. “İbtidai məktəb və məktəbəqədər tərbiyə” jurnalı, Bakı, 2007, № 2, s.21-26.

## САМОКОНТРОЛЬ УЧАЩИХСЯ ВО ВРЕМЯ ОБУЧЕНИЯ

***Джалилова Тунзале Аладдин кызы***

***Резюме***

Статья посвящена одной из актуальных проблем современной педагогики и методики. Здесь сделана попытка рассмотрения данной проблемы в духе независимости и национальной педагогики. В статье раскрываются педагогические

возможности школьного самоконтроля и приводятся оригинальные суждения, которые могут сыграть положительную роль в развитие педагогической науки.

## SELF-CONTROL OF STUDENTS DURING TRAINING

***Calilova Tunzala Aladdin***

***Summary***

The article is denoted one of the actual problem to our contemporaneity. Have been shown the ways of the usage depending on the preparation, experience of the teachers and in the same time new efficient means and methods opportunities. In article is made attempt of consideration of queen problems in sprint of independence and national pedagogy open the pedagogical possibilities of the school selifverification.

***Rəyçi: doc. Cəfər İbrahimov***
***Psixologiya kafedrasının 28 oktyabr 2021-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olma tarixi 02 noyabr 2021-ci il***

**UOT:32.**

## MƏDƏNİ MÜXTƏLİFLİYİN DƏSTƏKLƏNMƏSİ VƏ QORUNMASI AZƏRBAYCAN RESPUBLIKASININ DÖVLƏT SİYASƏTİDİR

***Əliyev Sədrəddin Malik oğlu***
***Gəncə Dövlət Universiteti***
***sedreddin.elixanli@mail.ru***

**Xülasə:** *Məqalədə, mədəni müxtəliflik, çoxmillətli, çoxdinli, çoxdilli Azərbaycanın ən müxtəlif milli-etnik qrupların nümayəndələrinin yaşadığı unikal coğrafi, geosiyasi və mədəni məkan olduğu verilmişdir. Multikulturalizm və tolerantlıq ənənələrini tarixən azərbaycanlıların həyat tərzi olması , bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilməsi, hər bir xalqın formalaşması və təkamülü prosesində mütərəqqi fikir və ideyalar əsas səfərbəredici amil kimi verilmişdir. Bu fikir və ideyaları özündə cəm edən milli ideologiyalar olmadan ayrı-ayrı xalqların nəinki inkişafından, hətta mövcudluğundan danışmaq çətindir. Hər hansı xalqın bütünlüyünü təmin edən birlik və həmrəylik konsepsiyasını milli ideyasız reallaşdırmaq mümkünsüzdür. Azərbaycan xalqının Mədəni müxtəlifliliyi onun tarixən keçdiyi yolu, tarixi adət-ənənələri, sahibləndiyi milli-mənəvi dəyərləri barədə dolğun təsəvvür yaradır. Xüsusən tarixin bütün dövrlərində özünün rəngarəng tərkibli olması ilə fərqlənən Azərbaycanda bu müxtəlifliyin etnik-milli mənbələri mövcuddur. Azərbaycanda yaşayan onlarla etnik-dini birliklərin qarşılıqlı münasibəti və mədəniyyəti - folklor, dialekt, adət, məişət tərzi, inam sistemi və s. müxtəlifliyin vəhdətini müəyyənləşdirmişdir.*

**Açar sözlər:** Mədəni müxtəliflik, etnik, folklor, dialekt, adət, məişət tərzi, inam sistemi
**Key words**: cultural diversity, ethnic folklore custom, lifestyle, belief system
**Ключевые слова:** культурное разнообразие, этнические фольклорные обычаи, образ жизни, система убеждений.

Mədəniyyətin ən mühüm amillərindən biri mədəni müxtəliflik və plüralizmdir. Azərbaycan çox qədimdən ən müxtəlif xalqların və mədəniyyətlərin vətəni olmuşdur. Şərq mədəniyyətinin dünya və Avropa mədəniyyətinə, yaxud əksinə keçid alması üçün Azərbaycan körpü rolunu oynamışdır. Çoxmillətli, çoxdinli, çoxdilli Azərbaycan üçün bu ideologiyanı tarixi reallığımızın özü irəli sürmüşdür. Həqiqətən, ən müxtəlif milli-etnik qrupların nümayəndələrinin yaşadığı Azərbaycan unikal coğrafi, geosiyasi və mədəni məkandır.[1,s 61-62]